"Cənubi Qafqaz. 1903-cü il" xəritəsi: ermənilərin toponimik aqressiyalarını arqument kimi ifşa edən tarixi-coğrafi xəritələr

Kartoqrafiya elmi həmişə inkişaf etməkdədir. Bu yeni metodların, rəqəmsal texnologiyaların tətbiq edilməsi və yeni sahələrin geoinformasiya xəritələşdirilməsinin formalaşması ilə əlaqədar olaraq daha aydın nəzərə çarpır. Yeni geoinformasiya mühitində bu gün xəritə sadəcə model deyil, gerçək varlığın obrazlı-işarəli geoinformasiya modelidir. Bəşəriyyətin ən böyük kəşflərindən biri olan xəritə zəngin informasiya mənbəyi olaraq qalır. Elmi ədəbiyyata kartoqrafiyanın dərketmə konsepsiyası kimi daxil olan elmi dərketmə metodun tədqiqində öz nəticələrini göstərir. Bu gün xəritələr fiziki və iqtisadi coğrafiya, geologiya, geobotanika, ekologiya, tibbi coğrafiya, toponimika, tarixi coğrafiya və digər Yer və ictimai elmlərdə əsas dərketmə vasitələrindən birinə çevrilmişdir. Xəritələr qlobal, regional və lokal miqyasda məkan və zaman qanunauyğunluqlarını öyrənmək üçün bir vasitə kimi çıxış edir.

Bir çox kartoqraflar (K.A.Salışev, A.M.Berlyant, R.X.Piriyev və s.) öz elmi işlərində qeyd edirlər ki, xəritələr mövcud olanların modeli kimi qiymətli xüsusiyyətlərə (məsələn, təsvirin abstraktlığı və generalizasiyalılığı, ölçüsü və geometrikliyi, təsvirliliyi və sintetikliyi, eynicinsliyi (oxşarlığı) və fasiləsizliyi (kəsilməzliyi), əyaniliyi və icmallılığı, informasiya həcmi və s.) malikdir. Bu da onların coğrafi tədqiqatlar üçün xüsusi əhəmiyyətə malik olmasına gətirib çıxarır. Belə xüsusiyyətlər toplusuna heç bir digər coğrafi model malik deyil. Xəritələrdən istifadənin digər böyük stimulu onun nəhəng informasiya imkanlarına (informasiya həcminə) malik olmasıdır.

Rus hərbi kartoqrafiyası XIX əsrin ikinci yarısı - XX əsrin əvvəlində və onun yeni xəritələrin nəşrində rolu

Bütün xəritələr zaman keçdikcə köhnəlir. Xəritələrin köhnəlməsi həm ərazilərin dəyişməsi, həm də texniki cəhətlər nəticəsində baş verir. XIX əsrin ikinci yarısında topoqrafik xəritələrin yeni tətbiq sahələri (mühəndis işləri, geoloji kəşfiyyat və s.) meydana çıxdığından, onlardan relyefin həndəsi cəhətdən dəqiq verilməsi, yeni ştrixlərin horizontallarla əvəz olunması tələbini qoydu. Horizontalların çəkilməsi həm də ordu üçün vacib idi. Artilleriyanın inkişafı topoqrafik xəritələrdən hədəfə qədər olan məsafə ilə yanaşı onların hündürlüyünü də müəyyən etməyi tələb edirdi. Xəritələrin əsaslı yenidən işlənməsi kartoqrafik geodeziya cihazlarının təkmilləşdirilməsi ilə müşayiət olunurdu ki, bu da çap prosesinin sürətlənməsinə və çoxrəngli xəritələrin nəşr edilməsinə imkan verdi.

XIX əsrin ikinci yarısında Rusiyanın kənar sərhədlərini genişləndirmək cəhdləri rus hərbi kartoqrafiyasında öz əksini tapdı və o, yeni inkişaf mərhələsinə keçdi. Rusiyanın ətrafında çoxlu müstəmləkə torpaqlarının olması, həmçinin Avropanın metropoliya dövlətləri arasında ziddiyyətlərin kəskinləşməsi Rusiya hərbi-topoqrafik xidmətinin fəaliyyətində yeni vəzifələr müəyyən edirdi. Bu ətraf ərazilərdə yeni xəritələşdirmənin aparılması və köhnəlmiş topoqrafik xəritələrin dəyişdirilməsi idi. 1877-ci ildə çar hökuməti əsasən ordunun istifadəsi üçün xəritələşdirmə aparılması göstərişini verdi. Bunun nəticəsində hərbi-topoqrafik xidmət yarımverst (1:21000), 1907-ci ildən bir verst (1:42000) miqyaslı (qərb istiqamətdə) və iki verst (1:84000) miqyaslı (cənub və şərq istiqamətdə) topoqrafik xəritələrin işlənməsi üçün öz qüvvələrini cəmləşdirdi (K.A.Salışev, 1976, s.382).

I dünya müharibəsinə qədər nəhəng ölkələrin hərbi-topoqrafik xidmətləri özlərinin əsas vəzifəsini hərbi əməliyyatların mümkün gedə biləcəyi ərazilərin xəritələrinin vaxtında hazırlamaq hesab edirdilər. Bu illər ərzində aydın oldu ki, müharibələrin dağıdıcı qüvvəsi ərazinin simasını tez dəyişir və yeni işlənmiş xəritələr sürətlə köhnəlir, ona görə də müntəzəm yenilənmə tələb edir. Ordu qüvvələrinin sayının kəskin artması xəritələrə tələbatın həddən artıq çoxalmasına səbəb oldu. Ayrı-ayrı döyüşən ölkələrdə xəritələrin ümumi buraxılış miqdarı on və hətta yüz milyon vərəqlərlə hesablanırdı (K.A.Salışev, 1976, s.383).

Tarix, kartoqrafiya və toponimikanın öyrənilməsində tarixi-coğrafi xəritələrin əhəmiyyəti

Xəritələr məzmununa və məqsədinə görə böyük elmi-praktiki əhəmiyyətə malikdir. Onlar qiymətli informasiya mənbəyi kimi dövlətlərin adlarını, onların inzibati vahidlərini, yaşayış məntəqələrini, çayları, gölləri, dağları, silsilələri, düzənlikləri, mərzləri və digər obyektləri tarix üçün qoruyub saxlayır. Ona görə də onlar tarixi keçmişi öyrənməkdən ötrü əsas sənədlərdən biri rolunu oynayır. Köhnə xəritələri öyrənməklə, onları müasir xəritələrlə müqayisə etməklə inzibati-ərazi quruluşu barədə təsəvvür yaratmaq, yaşayış məntəqələri, sənaye rayonları, nəqliyyat yollarının inkişaf dinamikasını izləmək, əhalinin etnik və sosial tərkibini aydınlaşdırmaq, obyekt adlarının linqvistik mənsubiyyətini müəyyən etmək məqsədi ilə toponimik analizlər və s. aparmaq olar. Köhnə xəritələr yalnız öz dövrünün tarixi kəsimi deyil, həm də tarixi-coğrafi tədqiqatlar üçün vacib olan tarixi-statistik məlumatların alınmasına imkan verən vasitədir. Yarım əsir əvvəl məşhur rus alimi Y.M.Pospelov özünün "Toponimika və kartoqrafiya" (1971, s.10) kitabında qeyd edirdi ki, toponimikada kartoqrafik tədqiqat metodu toponimik hadisələrin yerləşməsi, onların zamana görə inkişaf dinamikası qanunauyğunluqlarının tapılması üçün müvəffəqiyyətlə tətbiq oluna bilər.

Azərbaycan ərazisi XVIII, XIX əsrlərdə fəal surətdə xəritələrə salınmışdır. XIX əsrdə Azərbaycanda topoqrafik xəritələşdirmə işləri xüsusi intensivliklə aparılmışdır ki, bu da Rusiyanın hərbi tələbatını ödəmək məqsədi ilə əlaqədar idi. Topoqrafiya işləri iki verst (1:84000), beş verst (1:210000), on verst (1:420 000) miqyasda, ayrı-ayrı region və şəhərlərdə bir verst, yarım verst və bəzən isə daha böyük miqyasda aparılırdı. Topoqrafik xəritələşmə materiallarının çoxu Tiflisdə yerləşən topoqrafik depoda toplanmışdır, hansı ki, orada xəritələrin tərtibi və çapı həyata keçirilirdi.

"Cənubi Qafqaz. 1903-cü il" xəritəsinin çapı haqqında xüsusi sərəncam və qısa səciyyəsi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 18 aprel 2012-ci il tarixində "Qafqaz Hərbi Dairəsinin 1903-cü il xəritəsi" əsasında tərtib olunmuş "Cənubi Qafqaz. 1903-cü il" xəritəsinin nəşr olunması barədə sərəncam imzalamışdır. Bununla əlaqədar Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə komitəsinə bu xəritənin 3 dildə - İngilis, rus və azərbaycan dillərində çap edilməsi üçün maliyyə vəsaiti ayırmışdır. Hər bir dildə 25 min, ümumilikdə 75 min nüsxə xəritə nəşr edilmişdir.



Şəkil 1.Qafqaz Hərbi dairəsinin 1903-cü il hərbi-topoqrafik xəritəsi

Prezidentin sərəncamında qeyd edilir ki, son vaxtlar ayrı-ayrı ölkələrin kütləvi informasiya vasitələrində Azərbaycan Respublikasının inzibati-ərazi vahidlərinin sərhədlərinin düzgün verilmədiyi, ərazi bütövlüyünün, tarixi və coğrafi adların təhrif olunduğu provokasiya xarakterli xəritə və atlas materiallarına rast gəlinir.

Dünya ictimaiyyətini düzgün informasiya ilə təmin etmək və bu növ provokasiyaların qarşısını almaq üçün "Qafqaz hərbi dairəsinin 1903-cü il hərbi-topoqrafik xəritəsi" əsasında AR Dövlət Torpaq və Xəritəçəkmə komitəsi tərəfindən "Cənubi Qafqaz. 1903-cü il" xəritəsi [19] hazırlanmış və Bakı Kartoqrafiya Fabriki tərəfindən çap edilmişdir.

Bu xəritənin bütün Qafqazı əhatə edən orijinalını 1903-cü ildə Tiflisdəki Qafqaz hərbi dairəsinin Hərbi-Topoqrafiya şöbəsi tərtib və nəşr etmişdir [18]. Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin onun əsasında nəşr etdiyi "Cənubi Qafqaz. 1903-cü il" xəritəsinin ölçüləri 210 sm x180 sm-dir. Xəritənin miqyası düymlə

16 verstdir (1 sm-də 6,72 km) və ona görə də orta miqyaslı xəritələr qrupuna aid edilir. Meridian və paralellərdən ibarət olan dərəcə şəbəkəsi 10-dən bir çəkilmişdir. Xəritənin adı onun rus ordusunun ehtiyacları üçün tərtib olunduğunu aydın göstərir. Bununla yanaşı o, kifayət qədər qeniş ərazini və çoxlu müxtəlif məzmunlu elementləri əks etdirir. Xəritədə dəqiq göstərilmişdir: qüberniya, əyalət, qəza və dairə mərkəzləri, digər şəhər və qəsəbələr, kəndlər, qalalar, istehkamlar, ştab kvartiralar, gömrük zastavaları, postlar, poçt və teleqraf stansiyaları, monastırlar, mayaklar, dəmiryol stansiyaları, həmçinin dağılmış qalalar, istehkamlar, şəhərlər və kəndlər. Ordu üçün nəzərdə tutulmuş xəritədə çaylar, göllər, yol şəbəkəsi (dəmir yolu, şosse yolları, araba yolları), sərhədlər (dövlət, qüberniya, əyalət, qəza və dairə) ətraflı verilmiş, böyük çaylarda körpülər, bərələr göstərilmişdir. Xəritələrin böyük üstünlüyü minlərlə yaşayış məntəqələri timsalında olan zəngin toponimik məzmunu, relyef formalarının (silsilələr, dağlar, zirvələr, aşırımlar), su obyektlərinin (çaylar, göllər) və s. olmasıdır (şəkil 2).



Şəkil 2. "Cənubi Qafqaz. 1903-cü il" xəritəsindən fraqment

"Cənubi Qafqaz. 1903-cü il" xəritəsinin yuxarıda adları çəkilən kartoqrafik məzmunlu elementləri onu zənginləşdirir, dəqiq ediri ki, bunun da böyük elmi-praktiki əhəmiyyəti var. Şərti işarələr vasitəsilə informasiyanın öyrənilməsindən aydın olur ki, xəritədə yaşayış məntəqələrindən kəndlər, qəsəbələr və hətta ölçüsü 100 heyətdən az olan aullar göstərilmişdir.

XX əsrin əvvəllərində Qafqaz Hərbi dairəsinin Hərbi-Topoqrafiya bölməsində tərtib və nəşr olunan xəritə təcavüzkar erməni hərbi-siyasi dairəsinin əsassız iddialarını ifşa etmək üçün çox böyük əhəmiyyətə malikdir. Belə ki, "Cənubi Qafqaz. 1903-cü il" xəritəsində XX əsrin əvvəllərindəki tarixi gerçəklik əks olunmuşdur. Xəritə tarixi sənəd kimi aşağıdakı faktı təsdiq edir: indiki Ermənistanın ərazisindəki coğrafi adların (toponimlərin) mütləq əksəriyyəti azərbaycan mənşəlidir.

"Cənubi Qafqaz. 1903-cü il" xəritəsi əsasında ayrı-ayrı rayonların (ərazilərin) toponimlərinin reprezentativ təhlili

İrəvan (1903-cü ilin xəritəsində Erivan, azərbaycan dilində İrəvan, rus dilində Yerevan) Ermənistanın paytaxtının adıdır. İrəvan Ağrı dərəsinin şimal kənarında Zəngi (Razdan) çayı sahilində 850-1300 m mütləq yüksəklikdə yerləşir. Yaşayış məntəqəsi kimi VI-VII əsrlərdən məlumdur. Müxtəlif tarixi dövrlərdə İrəvan xanlığının, İrəvan qüberniyasının paytaxtı olmuşdur. İrəvan (İrəvan) toponimi türk sözü olan "ir"- "dağın günəşli tərəfi", "dalğayabənzər dağ zirvəsi" və İran sözü olan "van" - "yer" sözlərindən ibarətdir. "Yerevan" formada yazılması da adın erməni dilində tələffüzü ilə əlaqədardır. XX əsrin əvvəllərində İrəvan iki hissədən - Təpəbaşı və Dəmirbulaqdan ibarət idi (Budaqov, Qeybullayev, 1998, s. 270).

Bir çox səyyahlar İrəvan qalası və İrəvan ətrafından bəhs edərkən azərbaycan mənşəli çoxlu toponimlərin adını çəkirlər: Sabunçu, Boyaqçı, Toxmaq, Şiləçi, Təpəbaşı, Dəmirbulaq, Bağçalar, Yonçalıq, Börkyü məhəllələri, Dəlməbulaq, Qırxbulaq, Sərdar bulaqları, Qəderçay, Zəngi çayları, Dərə bağı, Dərəkənd, Şəhər, Böyük meydanlar, Qanlı təpə, Üçtəpə, Qızılqaya, Qızıltəpə təpələri, Göy məscid, Qala məscid, Hacı Bəyim məscidi, Zal xan məscidi, Günlüklü məscid, Günbəzli məscid, Novruzəli məscidi, Hüseynəli məscidi və s.

Xəritədə İrəvan ətrafında və yaxınlığında azərbaycan coğrafi adları yaxşı oxunur: Gillicə, Küzadjik, Avan, Qəmriz, Eylyar, Kərpiçli, Qurbağalı, Sarvanlar, Ağbaş, Canatlı, Molla-Dursun, Ağamzalı, Yalma, Qazı-göl, Qızıldağ, Ağ-dağ və s. Adların çoxunun xəritələri tərtib edən rus topoqraf-kartoqrafları tərəfindən təhrif olunmasına baxmayaraq, ilk oxunuşdan bu toponimlərin azərbaycan mənşəli olduğu aydın olur.

1935-ci ildə Ermənistanda İrəvan şəhərinin adının dəyişdirilməsi barədə qərar qəbul edildi və ona Yerevan adı verildi. Beləliklə də türk-azərbaycan coğrafi adlarının kütləvi dəyişdirilməsi, əvəz olunması, başqa sözlə məhv edilməsinin (genosidinin) əsası qoyuldu.

Göyçə mahalı - Qərbi Azərbaycan ərazisində (indiki Ermənistan Respublikası) Göyçə gölü ətrafında yerləşən tarixi mahaldır. 1988-ci ilə qədər Göyçə mahalı azərbaycanlıların sıx yaşadığı ərazisi olmuşdur. 1747-1828-ci illərdə mahal İrəvan xanlığının tərkibinə daxil olmuş, sonralar isə İrəvan qüberniyasının əsas hissəsi olmuşdur. 1918-ci ildə Göyçə mahalı tarixi Azərbaycan torpağı kimi Azərbaycan Demokratik Respublikasının tərkibində olmuşdur. Sovet imperiyası ADR-nı işğal etdikdən sonra Azərbaycan ərazileri olan Zəngəzur, Göyçə, Şərur, Dərələyəz və həmçinin Dilican mahalları qeyri-qanuni olaraq Ermənistana verilmişdir. Sovet hakimiyyəti illərində Ermənistan SSR-sı rayonlara bölünərkən Göyçə mahalı süni olaraq 5 inzibati rayona ayrılmışdır (Çəmbərək, Basarkeçər, Aşağı Qaranlıq, Kəvər, Yelenovka).

İrəvan xanlığının bütün mahalları içərisində Göyçə mahalı yalnız geniş əraziyə malik olması ilə yox, həm də kəndlərinin sayının (103 kənd) çox olması ilə seçilirdi. Müxtəlif ensiklopediyalarda, tarixi mənbələrdə Qərbi Azərbaycanda (indiki Ermənistan) türk-azərbaycan mənşəli minlərlə yaşayış məntəqəsi, həmçinin digər makro-, mezo və mikratoponimlərin adı çəkilir. Çoxlu belə toponimlər İ.Şopenin (1852) kitabında sadalanır. Müəllif 1829-1832-ci illərdə şəxsən apardığı siyahıyaalma nəticəsində Göyçə mahalı kəndlərinin siyahısını vermişdir (15). İ.Şopen həmçinin Göyçə mahalında Rusiya-İran (1826-1828-ci illər) və Rusiya-Türkiyə (1828-1829-cu illər) müharibələri nəticəsində dağılmış kəndlərin də allarını vermişdir. Bu siyahıda Azərbaycan adları üstünlük təşkil edir.

Biz bu halda üstünlüyü kartoqrafik mənbələrə - 1877-ci və 1903-cü illərdə tərtib olunmuş xəritələrə veririk. Qafqaz vilayətinin hərbi - topoqrafik xəritəsi (E.8 vərəqi) topoqraflar korpusunun məlumatları əsasında ştabs-kapitan Kondratyev tərəfindən 1877-ci ildə tərtib edilmişdir (şəkil 3). Xəritə Qafqaz hərbi dairəsi ştabının hərbi-topoqrafiya şöbəsində 1:210000 (1 sm-də 2,1 km) miqyasında və yaxud ingilis düymü ilə 5 verst miqyasında nəşr edilmişdir. 1877-ci il xəritəsi və orta miqyaslı "Cənubi Qafqaz 1903-cü il" xəritəsi ərazinin əsas elementlərini, yaşayış məntəqələrini, inzibati vahidlərin sərhədlərini kifayət qədər aydın əks etdirir. Aşağıda ayrı-ayrı coğrafi obyektlərin adlarının siyahısı xəritədə yazıldığı formada verilir.

(ardı var)

Ramiz MƏMMƏDOV,
AMEA akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun direktoru, akademik

Şamil ƏZİZOV,
AMEA akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun şöbə müdiri, coğrafiya üzrə fəlsəfə doktoru